1-_Layout 1  12.08.2021  11:10  Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 15 (605)

14 avqust 2021-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


# Qarabağın dirçəlişi - Azərbaycanın yüksəlişi

## Prezident İlham Əliyevin postmüharibə dövrünə hazırladığı prioritetlər davamlı inkişaf üçün mühüm dövlət konsepsiyasıdır

**"Azərbaycan" qəzetinin müxbiri Rəşad Baxşəliyevin müəllifi olduğu "Qarabağın dirçəlişi - Azərbaycanın yüksəlişi" başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq ixtisarla oxucularımıza təqdim edirik.**



İqtisadi qüdrəti möhkəm olan dövlət bütün sahələrdə uğur qazanmağa qadirdir. Son 18 ildə yaranan potensial Azərbaycana Cənubi Qafqazın və ətraf regionların iqtisadiyyatlarını dəyişdirməyə qadir böyük layihələrin təşəbbüskarı olmaq imkanı verib. Ölkəmiz regional iqtisadiyyatın lokomotivi olaraq dünyada enerji təhlükəsizliyi ilə bağlı etibarlı tərəfdaşlardan birinə çevrilib. Bütün bunlar, əlbəttə ki, Azərbaycanın regionda iqtisadi rolunu daha da yüksəldib, ölkəyə böyük uğurlar qazandırıb.

### Pandemiya ilə mübarizə dövründə də heç bir sosial layihə təxirə salınmayıb

Düzdür, qlobal pandemiya dövründə iqtisadiyyatımız zərər görüb. Amma bu böhran ölkəmizin ümumi sosial-iqtisadi inkişaf tempinə, hətta regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının icrasına belə təsir göstərə bilməyib. Ölkədə heç bir sosial layihə təxirə salınmayıb.

Təkcə son 6 ayın statistik göstəricilərinə nəzər yetirsək görərik ki, artıq bir çox sahədə yüksəliş də var. Ölkə iqtisadiyyatı 2 faiz, qeyri-neft sektoru 5 faiz, qeyri-neft sənayesi 16,6 faiz, kənd təsərrüfatı 5,6 faiz artıb. Valyuta ehtiyatlarımız 1 milyard dollar artaraq 52 milyarda yüksəlib. Hazırda valyuta ehtiyatlarımız xarici dövlət borcundan təxminən 6 dəfə çoxdur. Bu nailiyyətlər, əlbəttə ki, İlham Əliyevin uğurlu siyasəti hesabına əldə edilib.

Bu gün isə qalib dövlət kimi Azərbaycan qarşısında çox böyük imkanlar açılıb. Bunu nəzərə alan dövlət başçısı növbəti illərdə hərtərəfli tərəqqi üçün yeni Milli Prioritetlər müəyyənləşdirib.

Bütün dövrlərdə baş verə biləcək neqativlərə qarşı əvvəlcədən tədbirlər görən, mühüm qərarlar qəbul edən İlham Əliyev yeni dövrdə də Azərbaycanın daha qüdrətli dövlətə çevrilməsi, növbəti onillikdə sosial-iqtisadi inkişafının, yüksəlişinin təmini üçün yol xəritəsi hazırlayıb. Sosial-iqtisadi inkişafa dair hazırlanan prioritetlər özündə beş istiqaməti cəmləşdirir - dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat, dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət, rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı, işğaldan azad olunmuş ərazilərə böyük qayıdış, təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi...

Qarşıdakı 10 illik müddəti əhatə edən bu vacib iqtisadi sənəd, eyni zamanda, postmüharibə dövrünün reallıqlarını özündə əks etdirir.

### Böyük qayıdış və "yaşıl artım" ölkəsi

İkinci Qarabağ müharibəsində şanlı qələbədən sonra yaranan reallıq göz önündədir. Qarşıya qoyulan bir nömrəli prioritet məsələ işğaldan azad olunmuş ərazilərdə bərpa və quruculuq işləri aparmaq, yeni infrastrukturların yaradılmasına, sərmayələrin cəlb edilməsinə nail olmaq, bir sözlə, Qarabağı yenidən cənnətməkana çevirməkdir.

Prezident beş prioritetin iki bəndini (işğaldan azad olunmuş ərazilərə böyük qayıdış və təmiz ətraf mühit, "yaşıl artım" ölkəsi) məhz bu istiqamətə uyğun müəyyənləşdirib. Çünki işğaldan azad olunmuş ərazilər böyük iqtisadi potensiala malikdir və təbii ki, Azərbaycan bu potensialdan maksimum yararlana bilər. Bu iki istiqamətin uğurlu icrası da onu deməyə əsas verir ki, tezliklə Qarabağın iqtisadi imkanlarından əldə ediləcək dividendlər ölkənin qüdrətinin daha da yüksəlişi üçün real zəmin yarada bilər. Çünki Qarabağda dağ-mədən sənayesi, metallurgiya, yeyinti sənayesi, trikotaj, turizm, aqrar və "yaşıl enerji" kimi sahələrin böyük inkişaf potensialı var. Yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizinin bərpa olunması isə ölkəmizin qlobal bazarlara çıxış imkanlarını artırmaqla yanaşı, işğaldan azad edilmiş ərazilərin inkişafına da əhəmiyyətli təkan verəcək.

Dövlət büdcəsi hesabına Qarabağda 2,2 milyard manatlıq sərmayənin qoyuluşu da təsdiq edir ki, işğaldan azad edilmiş ərazilərdə yaradılacaq iqtisadi infrastrukturlar dayanıqlı inkişafa böyük imkan yaradacaq. Eyni zamanda, xarici dövlətlərin iri şirkətləri də bu gün işğaldan azad edilmiş torpaqlarda investisiya yatırımına böyük maraq göstərirlər. Artıq Türkiyə, İtaliya, Böyük Britaniya, Pakistan, İsrail kimi dövlətlərdən Qarabağın bərpasına sərmayə axını başlayıb.

Onu da vurğulayaq ki, Azərbaycan bütün bu işləri heç kimdən yardım almadan öz hesabına edir. Xarici şirkətlər bu işlərə cəlb edilib, amma podratçı kimi. Bütün vəsait dövlət büdcəsindən xərclənir.

### Qarabağın inkişaf strategiyası - iqtisadi rayonların yeni bölgüsü

İlham Əliyevin iyulun 7-də iqtisadi rayonların yeni bölgüsü ilə bağlı imzaladığı fərman da uzaqgörən iqtisadi və siyasi planın tərkib hissəsi oldu. Sənəddə vurğulanır ki, hazırda işğaldan azad edilmiş ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Qeyd edilən ərazilərin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə etməklə onların bərabər inkişafının təmin edilməsi üçün nəzərdə tutulan bütün işlərin vahid proqram əsasında aparılmasının məqsədəmüvafiqliyi əraziləri işğaldan azad edilmiş rayonların iqtisadi rayonlar üzrə bölgüsünə yenidən baxılmasını şərtləndirir.

Zəngəzur dağ silsiləsi ilə əhatə olunan, Laçın və Kəlbəcərdən Naxçıvana qədər böyük bir ərazini tutan Zəngəzur yaylasının şərq hissəsində, Ermənistanla sərhəddə yerləşmiş və eyni coğrafi məkanda, tarixən birlikdə, habelə uzun illər 1861-ci ildə yaradılmış Zəngəzur qəzasının tərkibində olmaları və ənənəvi sosial-iqtisadi, tarixi-mədəni bağlılıqları Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın və Kəlbəcər rayonlarının vahid iqtisadi rayonda birləşdirilməsini zəruri edir.

Ağdam, Şuşa, Füzuli, Tərtər, Xocavənd, Xocalı rayonları və Xankəndi şəhəri, habelə Qarabağ bölgəsinə aid olan Ağcabədi və Bərdə rayonları da daxil olmaqla özünəməxsus zəngin tarixi-mədəni irsə, əsrarəngiz təbiətə malik olan qədim Qarabağ bölgəsinin bərpası və sürətli inkişafının təmin edilməsi üçün yeni Qarabağ iqtisadi rayonunun da yaradılması vacib idi.

Sənədə əsasən, bu məqsədlə yeni iqtisadi rayonlar yaradıldı - Qarabağ iqtisadi rayonu (Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonları) və Şərqi Zəngəzur iqtisadi rayonu (Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları).

Ümumilikdə, iqtisadi rayonların sayı 10-dan 14-ə yüksəldi. Çünki Azərbaycan iqtisadiyyatı üç dəfədən çox böyüyüb, iqtisadiyyatın regional və sektoral strukturu dəyişib, habelə Qarabağın iqtisadi dövriyyəyə qayıtması və regional kommunikasiyaların, o cümlədən, Zəngəzur dəhlizinin açılması perspektivi yeni reallıqlar yaradıb.

İqtisadçılar hesab edirlər ki, yeni reallıq iqtisadi rayonlaşdırmaya yeni yanaşmanı əsaslandırır. Azərbaycanda iqtisadi rayonların yeni bölgüsü xüsusən Qarabağın bərpası və inkişafı istiqamətində həyata keçirilən tədbirlərin səmərəliliyinin artırılmasına töhfə verəcək. Ölkədə iqtisadi idarəetmədə çevikliyin təmin olunmasına, institusional islahatlar aparılmasına xidmət edəcək. Xüsusən də iqtisadi rayonlar üzrə planlaşdırma işinin səmərəliliyini artıracaq. Regionların sosial-iqtisadi inkişaf proqramı, eyni zamanda, Qarabağın inkişaf strategiyası da iqtisadi rayonların yeni bölgüsünə uyğunlaşdırılacaq.

# Daxili Qoşunlarda xidmətə yeni qəbul edilmiş çağırışçıların andiçmə mərasimi keçirilib

Avqustun 7-də Daxili Qoşunların 25031 saylı hərbi hissəsində xidmətə yeni qəbul edilmiş çağırışçıların hərbi andiçmə mərasimi keçirilib.

Mərasimdə daxili qoşunlar komandanının müavini – şəxsi heyət üzrə idarənin rəisi general-mayor Vidadi Əliyev iştirak edib.

Tədbir Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsinin yad edilməsi ilə başlayıb. Nümunəvi göstərici hərbi orkestrin müşayiəti ilə Dövlət Himni ifa edilib.

Əsgərlər hərbi and içərək, Azərbaycan Respublikasının mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini şərəflə qoruyacaqlarına, bundan ötrü canlarını belə əsirgəməyəcəklərinə söz veriblər.

Tədbirdə çıxış edən hərbi hissə komandiri polkovnik Telman Həsənov əsgərlərə hərbi andın mənasını, öz xalqına, Azərbaycan Respublikasına və Azərbaycan hökumətinə sədaqətlə and içən hərbi qulluqçuların üzərinə düşən şərəfli və məsul vəzifələri, eləcə də Konstitusiyamızın müvafiq maddələrinin tələblərini xatırladıb.





Sonra daxili işlər nazirinin müavini - daxili qoşunların komandanının hərbi andiçmə münasibətilə əsgərlərə ünvanladığı təbriki çatdırılıb.

Təbrikdə hərbi andı qəbul edən hərbi qulluqçuların qoşunların bütün şəxsi heyəti kimi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən qarşıya qoyulan hər bir tapşırıq üçün şəxsi məsuliyyət daşıdıqları, bundan əlavə, Daxili Qoşunların möhkəmlənməsi və qüdrətlənməsi üçün göstərilən diqqət və qayğının sıralarımızda xidmət edən hər bir gənci öz vəzifələrini mətinliklə yerinə yetirməyə ruhlandırdığı da vurğulanıb.

Qeyd olunub ki, hərbi and içərək respublikamızın müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü göz bəbəyi kimi qorumağa söz verməklə, hər bir hərbi qulluqçu bu müqəddəs andın mənasını tam olaraq dərk etməlidir. Təbrikdə, həmçinin, 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək davam edən Vətən müharibəsində Daxili Qoşunların şəxsi heyətinin fədakarlıq göstərərək, şərəfli döyüş yolu keçdiyi də bildirilib.

Sıralarımıza daxil olan hər bir hərbi qulluqçunun Azərbaycan Respublikasının Konstitusiyasına, hərbi anda və nizamnamələrə sadiq qalacağına, dövlətçiliyimizin qorunması və qüdrətlənməsi naminə uğurlar qazanacağına əminlik ifadə olunub.

Təntənəli gün münasibətilə çıxış edənlər əsgərləri səmimi qəlbdən təbrik edərək, onları cəsur və intizamlı olmaqla, hərbi bilikləri öyrənməyə, daim Vətənin müdafiəsinə hazır olmağa səsləyiblər.

Mərasim şəxsi heyətin təntənəli keçidi ilə başa çatıb.

**Qeyd edək ki, hərbi andiçmə mərasimi Daxili Qoşunların 99713, 12565 və 16073 saylı hərbi hissələrində də keçirilib.**

**Mətbuat xidməti**

2 - 1_Layout 1 12.08.2021 19:00 Page 1



# ƏN ÇƏTİN SINAQLARDAN ÜZÜAĞ ÇIXAN XÜSUSİ TƏYİNATLI DƏSTƏ

## *“Bəbir” şərti adı verilmiş dəstə hərbi hissənin yüksək döyüş hazırlığının qorunub saxlanılmasında mühüm rol oynayır*

Regionda ictimai təhlükəsizliyin qorunub saxlanılması, hüquqazidd əməllərin qarşısının alınması, silahlı cinayətkarların axtarılıb tutulması və zərərsizləşdirilməsi, eləcə də istənilən hava şəraitində qarşıya qoyulmuş tapşırıqları vaxtında yerinə yetirmək xüsusi təyinatlıların bir nömrəli vəzifəsi hesab olunur. Bu isə, öz növbəsində, hər bir xüsusi təyinatlıdan yüksək döyüş hazırlığı, möhkəm hərbi intizam və “dəmir” iradə tələb edir. 16073 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin hərbi qulluqçuları sadalanan bu keyfiyyətlərə sahibdir desək, yanılmarıq. 2020-ci ilin, eyni zamanda, 2021-ci ilin I yarımilinin xidməti-döyüş fəaliyyətinin yekunlarına görə hissənin bölmələri arasında dəstənin birinci yerə layiq görülməsi də bu fikri söyləməyə tam əsas verir.



“Bəbir” şərti adı verilmiş dəstə hərbi hissənin yüksək döyüş hazırlığının qorunub saxlanılmasında mühüm rol oynayır. Qeyd edək ki, dəstənin şəxsi heyəti ötən ilin sentyabr ayının 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsində iştirak edərək, misilsiz qəhrəmanlıq nümunələri göstərib. Dəstənin 6 nəfər hərbi qulluqçusu, o cümlədən, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müvafiq sərəncamı ilə ölümündən sonra “Vətən Müharibəsi Qəhrəmanı” adına layiq görülmüş dəstənin keçmiş komandiri mayor Şixamir Qaflanov şəhidlik zirvəsinə ucalıb.



Mayor Zaur Rəhimov da xüsusi təyinatlı dəstənin komandiri kimi şəxsi heyəti ilə birgə respublikamızın ərazi bütövlüyü və torpaqlarımızın işğaldan azad edilməsi uğrunda qarşıya qoyulan tapşırıqları şərəflə yerinə yetirib. Vətən müharibəsi zamanı Daxili Qoşunların 17072 saylı hərbi hissəsində xüsusi təyinatlı dəstənin komandiri olan hərbi qulluqçumuz hazırda 16073 saylı hərbi hissədə eyni vəzifəni uğurla icra edir.

O, vəzifə borclarından irəli gələn tələblər barədə danışarkən söylədi ki, hava şəraitindən asılı olmayaraq, şəxsi heyətlə təlim-məşq prosesləri davamlı olaraq keçirilir. Döyüş təlimi daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının müvafiq direktivinin tələblərinə əsasən təşkil edilir. Əsas diqqət atəş və fiziki hazırlıqla yanaşı, xüsusi-taktiki hazırlıq, hərbi topoqrafiya, həmlə-desant hazırlığı, tək əsgərin döyüş təlimi, hərbi-tibbi hazırlıq, hərbi mühəndis hazırlığı və mütəxəssislərlə ixtisas hazırlığı üzrə məşğələlərə yetirilir. Xüsusən çətin iqlim şəraitində təlimlərin keçirilməsi diqqət mərkəzində saxlanılır. Hərbi qulluqçuların düzgün dünyagörüşünün formalaşması, onlara müsbət mənəvi-psixoloji keyfiyyətlərin aşılanması yönündə addımlar atılır. Bunun nəticəsidir ki, xüsusi təyinatlılar qarşıya qoyulmuş ən çətin tapşırıqların öhdəsindən layiqincə gəlir, istənilən sınaqdan üzüağ çıxmağa müvəffəq olurlar.

Dəstə komandiri onu da vurğuladı ki, məşğələlər şəxsi heyətin təhkim olunmuş silaha mükəmməl yiyələnməsinə, əlbəyaxa döyüş fəndlərinin öyrənilməsinə, müxtəlif şəraitlərdə xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı döyüş və digər texnikanın bacarıqla tətbiq edilməsinə, nizam-intizamın möhkəmləndirilməsinə və sayıqlığın artırılmasına, eləcə də fiziki və psixoloji gərginliyə müvəffəqiyyətlə tab gətirilməsinə istiqamətlənir. Ekstremal şəraitlərdə dayanıqlığın, mərdliyin və şücaətin, qətiyyətli fəaliyyətin nümayiş etdirilməsi nəzərdən qaçmayan məsələlərdir.

Müxtəlif ərazi relyefində və hava şəraitində keçirilən məşğələlərin əsas mahiyyəti məhz verilmiş döyüş tapşırığının müvəffəqiyyətlə yerinə yetirilməsidir. Dəstə komandiri qeyd etdi ki, praktiki məşğələlər zamanı hərbi qulluqçulara xüsusi metod və vasitələr öyrədilir: “Yüksək döyüş hazırlığının qorunub saxlanılması məqsədilə şəxsi heyət mütəmadi olaraq real döyüş şəraitinə uyğunlaşdırılmış təlimlərə cəlb olunur. Ayda bir dəfə iki-üçgünlük “Dəstə reyd fəaliyyətində” mövzusunda xüsusi-taktiki təlim keçirilir. Təlim və məşğələlərin vaxtında müasir metod və üsullarla keçirilməsi hərbi qulluqçuların döyüş qabiliyyətinin artırılmasına xidmət edir. Davamlı olaraq həyata keçirilən təlim-məşq prosesləri






zamanı hərbi qulluqçular qarşıya qoyulmuş bütün tapşırıqları məsuliyyətlə icra edirlər”.

Təlimlər zamanı şəxsi heyət tərəfindən təhlükəsizlik qaydalarına da ciddi riayət olunur.

Hərbi qulluqçuların mənəvi-psixoloji hazırlıqlarının artırılması, qarşıya çıxan tapşırıqların hər an yerinə yetirilməsinə hazır olmaları diqqət mərkəzində saxlanılır.

Mayor Z.Rəhimov sonda şəxsi heyətin qəflətən qarşıya çıxan xidməti-döyüş tapşırıqlarının peşəkarcasına və müvəffəqiyyətlə yerinə yetirilməsi üçün bundan sonra da yorulmadan, əzmlə çalışacağını, göstərilən etimadı daim doğruldacağını söylədi.

**kapitan Xədicə Hacızadə**

# XÜSUSİ VASİTƏLƏRİN TƏTBİQİ BÖLMƏSİ YÜKSƏK DÖYÜŞ HAZIRLIĞINA MALİKDİR

99713 saylı hərbi hissənin nümunəvi bölmələrindən biri də polkovnik-leytenant Yavər Məmmədovun komandiri olduğu xüsusi vasitələrin tətbiqi dəstəsidir. Cari ilin 1-ci yarımilinin xidməti-döyüş fəaliyyətinin və hərbi intizamın yekunlarına görə bölmələr arasında 2-ci yerə layiq görülüb. “Bölmənin döyüş hazırlığının yüksəldilməsi üçün şəxsi heyətlə döyüş təliminin metodiki cəhətdən düzgün keçirilməsi, mənəvi-psixoloji durumun yüksək olması, hərtərəfli təminatın mövcudluğu qarşıya qoyulan tapşırıqların dəqiq və vaxtında yerinə yetirilməsinə zəmin yaradır. Bölməyə təhkim olunmuş döyüş texnikasının, sursatların və əmlakların vəziyyətinin daima diqqətdə saxlanılması, daxili qayda-qanuna riayət edilməsi






də bu istiqamətdə əsas amillərdir”. Bu sözləri dəstənin komandiri polkovnik-leytenant Y.Məmmədov dedi.

Şəxsi heyətin nəzəri biliyinin və döyüş hazırlığının artırılması məqsədilə, tərtib olunmuş məşğələ cədvəlinə əsasən, hərbi qulluqçularla ictimai-siyasi, sıra, taktiki, atəş, fiziki, ixtisas və Daxili Qoşunların taktiki hazırlığı üzrə məşğələlər təşkil olunur. Məşğələlərin keçirilməsində qrup və yarımqrup komandirlərinin biliklərinin dərindən qavranılması prosesi əsas götürülür. Əsasən atəş hazırlığından, fiziki hazırlıqdan, Daxili Qoşunların taktiki hazırlığından və ixtisas hazırlığından yüksək nəticələr əldə edən hərbi qulluqçular döyüş hazırlığının qorunub saxlanılması istiqamətində öz üzərilərində durmadan çalışırlar. Bölmə komandiri şəxsi heyətin biliklərini və praktiki vərdişlərini şəxsən yoxlayır.

Həmçinin, tərbiyə işi saatlarının əhəmiyyətindən söz açan müsahibim bölmənin şəxsi heyətilə yüksək nizam-intizama nail olmaq və onun qorunub saxlanılması mövzusunda söhbətlərin aparıldığını bildirdi. Bu işdə dəstə komandirinin tərbiyə işləri üzrə müavini kapitan Rəşad Abdullayevin əməyini qeyd etmək yerinə düşər. O, hərbi qulluqçuların mənəvi-psixoloji durumunun yüksəldilməsi istiqamətində üzərinə düşən vəzifələri layiqincə icra edir.

Polkovnik-leytenant Y.Məmmədov bölmənin döyüş hazırlığından danışarkən, həmçinin, şəxsi heyətin Vətən müharibəsində iştirakını diqqətə çatdırdı. Bildirdi ki, xüsusi vasitələrin tətbiqi dəstəsinin hərbi qulluqçularından 183 nəfər Füzuli rayonu istiqamətində və Şuşanın azad olunması uğrunda döyüşərkən 20 nəfər yaralanıb, 3 nəfər şəhidlik zirvəsinə yüksəlib.

O, xüsusi vasitələrin tətbiqi dəstəsinin bölmələri arasında əsas etibarilə kapitan Araz Sadıqovun komandiri olduğu xüsusi vasitələrin tətbiqi bölməsinin fəaliyyətinin qənaətbəxş olduğunu söylədi. Tabeliyində olanlara qarşı tələbkar və eyni zamanda, onlara nümunə olmağı bacaran zabit bölmədə ciddi intizamın yaradılmasında, döyüş hazırlığının yüksəldilməsində əlindən gələni əsirgəmir.

Xidmətdə fərqlənən yarımqrup komandirlərindən gizir Aqşin Rüstəmov, Vətən müharibəsində iştirak edərək yaralanan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularından baş çavuş Əhəd Hüseynov, baş əsgər Elvin Abbasov, əsgərlər Rusif İsrafilov, Elçin Cəbrayılov, Kamran Allahverdiyev və Pərviz Əkbərovun adlarını çəkdi.

**baş leytenant Nigar Ağayeva**

# Döyüş qabiliyyətinin artırılmasında fiziki hazırlığın müstəsna rolu var

Daxili Qoşunların sıralarında fiziki hazırlığın inkişafına böyük önəm verilir. Fiziki hərəkətlər hərbi qulluqçuların həyat fəaliyyətində, eyni zamanda, xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsində mühüm amildir. Qüvvətli və dözümlü hərbi qulluqçu istənilən tapşırığı uğurla icra edir.



Hərbi hissələrdə idman qurğuları ilə təchiz edilmiş idman şəhərcikləri mövcuddur. Şəxsi heyətin həm sağlamlığı, həm də dözümlülüyünü formalaşdırmaq, həmçinin, döyüş qabiliyyətinin artırılması üçün hərbi hissələrin idman şəhərciklərində mütəmadi olaraq fiziki hazırlıq məşğələləri keçirilir.

Hər bir zabit, gizir, müddətdən artıq və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu özünün fiziki hazırlığına şəxsən məsuliyyət daşımalı, verilən tapşırıqları yerinə yetirməyə fiziki cəhətdən daim hazır olmalıdır.

Daxili Qoşunların Baş İdarəsinin qərargahında əməliyyat və döyüş hazırlığı idarəsinin döyüş hazırlığı şöbəsində fiziki hazırlıq və idman rəisi mayor Mehman Nəsibov fiziki hazırlığın əhəmiyyətindən danışdı. Fiziki hazırlıq məşğələlərinin daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında fiziki hazırlıq üzrə fəaliyyətin təşkilinə dair Təlimat”ın tələblərinə əsasən keçirildiyini bildirdi: “Məşğələlərdə gücün nümayiş olunmasına və ümumən, əzələlərdə fiziki gücün artırılmasına dair çox sayda hərəkət mövcuddur. Fiziki hazırlığın nəticələrinin yüksəldilməsi üçün daim məqbullar qəbul olunur. Yüksək fiziki hazırlıqlı hərbi qulluqçu döyüş tapşırıqlarını daha çevik və dəqiq yerinə yetirir”.



Qeyd edək ki, hərbi-idman kompleksinin normativlərini müvəffəqiyyətlə yerinə yetirmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularımız həvəsləndirmə qaydasında I və II dərəcəli “İdmançı əsgər” döş nişanı ilə təltif olunurlar.

Müntəzəm olaraq keçirilən idman təlimi tibbi baxımdan da insan orqanizminə müsbət təsir göstərir, xəstəliklərə yoluxmanın qarşısını alır. Bu zaman əhval-ruhiyyə yaxşılaşır, cəsarət, güc, özünəinam keyfiyyətləri formalaşır. İnsanlarda iradi keyfiyyətlərin inkişafı ilə yanaşı, piy qatlarının əriməsi və ümumən, qeyd etdiyimiz kimi, əzələ tonusunun gümrah saxlanılmasına kömək edir. Eyni zamanda, qan-damar sisteminə və qan dövranının yaxşılaşmasına müsbət təsiri gündəlik olaraq öz təsdiqini tapır.

Döyüşdə uğur əldə etmək, qələbəni qazanmaq üçün şəxsi heyətin həm fiziki, həm də mənəvi-psixoloji cəhətdən yüksək səviyyədə olması vacib şərtdir. Bu amil 44 gün davam edən Vətən müharibəsində zəfərin əldə olunmasında mühüm rol oynadı. Fiziki cəhətdən güclü, çevik olan hərbi qulluqçularımız döyüş meydanında uğur qazandılar. Hərbi qulluqçularımız həm mənəvi, həm taktiki, həm də fiziki cəhətdən güclü olduqlarını sübut etdilər.

Torpaqlarımızın işğaldan azad edilməsində müasir silah və texnika ilə yanaşı, onları idarə edə bilən fiziki cəhətdən hazırlıqlı hərbi qulluqçuların rolunu xüsusi vurğulamaq lazımdır. Hərbi qulluqçularımızın fiziki cəhətdən hazırlıqlı olmaları Vətən müharibəsində çətin keçilə bilən ərazilərdə piyada, tam ekipirovka ilə hərəkət zamanı, düşmənlə üz-üzə gəldikdə əlbəyaxa döyüşərkən, döyüş tapşırıqlarını uğurla yerinə yetirmələrindən hiss olunurdu.

Dövlətimizin suverenliyini və ərazi bütövlüyünü qorumaq hər bir Azərbaycan vətəndaşının borcudur. Hərbi qulluqçularımız qarşıya qoyulan hər hansı tapşırığın yerinə yetirilməsinə hər zaman hazır olmalı və öz fiziki hazırlıqlarını daima yüksək səviyyədə saxlamalıdırlar.

**kapitan Sadıq Rəfiyev**

3_Layout 1 12.08.2021 12:10 Page 1



*Şəhidlərimiz*

# DOĞUM GÜNÜNÜ QEYD ETMƏYƏN ŞƏHİD BAŞ ÇAVUŞUMUZ...

Doğum günü fevral ayının 26-na - Xocalı soyqırımının ildönümünə təsadüf etdiyi üçün bunu əsla qeyd etməzdi Tural. Hətta bu münasibətlə təbrik olunmağından heç xoşu gəlməzdi və cavabında: "yəqin bilirsiniz ki, mən doğum günümü qeyd etmirəm" – deyə könülsüz halda mövqeyini bildirərdi. Vətənpərvər ruhda böyüyüb tərbiyə alan cəsur silahdaşımız qəti olaraq bununla bağlı özünə söz də vermişdi: "İşğal olunmuş torpaqlarımız azad olunmayınca, şəhidlərimizin intiqamı mənfur düşməndən alınmayınca, doğum günümü heç bir zaman qeyd etməyəcəyəm!".

Haqqında bəhs edəcəyimiz "Şəhidlərimiz" rubrikasının budəfəki qəhrəmanı Vətən uğrunda son damla qanınadək döyüşərək şəhidlik zirvəsinə ucalmış "Qarabağ" ordenli cəsur silahdaşımız baş çavuş Abdullayev Tural Şakir oğludur.

Baş çavuş Tural Abdullayev 1990-cı il fevralın 26-da Laçın rayonunun Ərikli kəndində anadan olub. Şakir Abdullayevin və İradə Sadıqovanın böyüdüb tərbiyə etdikləri üç övladın ortancılı, həmçinin, iki bacının – Gülər və Nisənin yeganə qardaşı, arxa-dayağı idi Tural...

Hələ körpə yaşlarından Tural doğma Vətənimizə məhəbbət, mənfur düşmənlərimizə isə nifrət ruhunda tərbiyə almışdı. Təbii ki, bunun da başlıca səbəbi erməni işğalı nəticəsində Abdullayevlər ailəsinin, digər soydaşlarımız kimi, taleyin amansız hökmü ilə yaşamağa məhkum olduğu məcburi köçkünlük həyatının qəlbləri göynədən ağrı-acısı, çəkdiyi min bir əzab-əziyyəti idi. Atasının da vurğuladığı kimi, Birinci Qarabağ müharibəsi zamanı düşmən gülləsinə tuş gələrək şəhidlik zirvəsinə yüksəlmiş əmisi Abdullayev Fazil Azay oğlu, həmçinin, Xocalıda və digər yurd yerlərimizdə amansız erməni vəhşiliyinin günahsız qurbanlarına çevrilərək həyatını itirmiş on səkkiz nəfər yaxın qohum-əqrəbası da daxil olmaqla, bütün şəhidlərimizin qisasını almaq arzusu cəsur silahdaşımızın bu qanıçən topluma olan nifrətini daha da artırırdı. Tural Laçının Ərikli kəndində dünyaya göz açsa da, iki yaşınadək ailəsi ilə birgə Xocalıda yaşamışdı. Bunun da başlıca səbəbi o dövrdə Xocalının tədricən şəhər kimi inkişaf etməyə başlaması idi. Belə ki, yeni-yeni müəssisələrin istifadəyə verilməsi, həmçinin, aparılan böyük həcmdə tikinti-quruculuq işləri ilə əlaqədar yaranan çoxsaylı iş yeri səbəbindən, ətraf rayonlarda yaşayan bir sıra aztəminatlı azərbaycanlı ailələr kimi, Turalın ailəsi də işləmək və daimi yaşamaq üçün bu şəhərə üz tutmuşdu. Lakin 1992-ci il fevralın 26-da şəhər erməni qəsbkarları tərəfindən işğala və əhalisi soyqırıma məruz qaldığından, Abdullayevlər ailəsi Bakının Xətai rayonuna pənah gətirməli olmuşdu. Bu səbəbdən də müvafiq sənədlərdə Turalın və ailə üzvlərinin qeydiyyat ünvanlarının Xocalı şəhəri olması göstərilib.



Orta təhsilinin 8-ci sinfədək olan hissəsini Bakı şəhəri, Xətai rayonu ərazisində yerləşən Laçın rayonu 28 saylı tam orta məktəbində, 9-11-ci sinifləri isə ailəsinin təsərrüfat qurmaq səbəbilə müvəqqəti yaşamaq üçün üz tutduğu və yaxın qohumlarının da məskunlaşdıqları Qax rayonunun Almalı kənd orta məktəbində oxumalı olub. Üç ildən sonra, burada üzləşdikləri bir sıra çətinliklər səbəbindən istədikləri həyat şəraitini qura bilməyən Abdullayevlər ailəsi yenidən Bakı şəhərinə qayıtmağı qərara alır. Lakin bu dəfə Sabunçu rayonunun Bilgəh qəsəbəsində müvəqqəti kirayə tutduqları evdə yaşamalı olurlar. Tural Vətən müharibəsində iştirak etmək üçün döyüş bölgəsinə yollanmazdan öncə, sonuncu dəfə məhz bu ünvanda doğmaları ilə sağollaşaraq ata-anasının xeyir-duasını alıb, onlardan ayrılmışdı...

2009-cu ilin iyul ayında T.Abdullayev Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Xocalı Rayon Bölməsi tərəfindən müddətli həqiqi hərbi xidmətə çağırılıb. Müddətli həqiqi hərbi xidmətini 2009-cu ilin iyul ayından 2011-ci ilin yanvar ayınadək Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin xüsusi təyinatlı bölməsində keçib. Qısa fasilədən sonra, yəni 2011-ci ilin aprel ayından Daxili Qoşunların 17074 saylı hərbi hissəsinin xüsusi təyinatlı dəstəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi yenidən Vətənə olan borcunu yerinə yetirməyə başlayıb. Burada müxtəlif vəzifələrdə xidmətini davam etdirən Tural 2015-ci ilin may ayından etibarən xüsusi təyinatlı dəstənin avtomobil yarımqrupunda sürücü vəzifəsini şərəflə yerinə yetirib. Yüksək döyüş hazırlığı, hərbi intizamı və nümunəvi xidməti ilə hər zaman hərbi hissə komandanlığının etimadını doğruldub. Hələ xidmət etdiyi dövrdə xidməti vəzifələrinin, hərbi borcunun yerinə yetirilməsində və hərbi intizamın möhkəmləndirilməsində yüksək göstəricilər əldə edən cəsur hərbi qulluqçumuz 3-cü dərəcəli "Qüsursuz xidmətə görə" medalı, Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyinin təsis etdiyi "Milli Ordu-100" xatirə medalı və "Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının 20 illiyi" yubiley döş nişanı ilə təltif edilib, həmçinin, hərbi hissə komandanlığı tərəfindən dəfələrlə mükafatlandırılıb.

16073 saylı hərbi hissədə xüsusi təyinatlı dəstə komandirinin müavini-qərargah rəisi, Vətən Müharibəsi Qəhrəmanı kapitan Nicad Bədəlov vaxtilə birgə xidmət etdiyi cəsur döyüşçü yoldaşının nümunəvi xidmətini bu gün də böyük fəxr hissi ilə xatırladığını bildirdi: "Baş çavuş Tural Abdullayev dəstəmizin hər zaman nümunəvi xidməti və yüksək hərbi intizamı ilə fərqlənən hərbi qulluqçularından biri olub. Düşünürəm ki, Turalı yaxından tanıyan hər bir insanın qəlbində onunla bağlı yalnız ən xoş xatirələr yaşaya bilər. Yaşadığımız indiki bu dünyada layiqli bir vətəndaş, eyni zamanda, əsl vətənpərvər insan üçün deyilən və yazılan bütün xoş sözləri məhz ona şamil etmək olar.

Erməni vəhşiliyi nəticəsində hələ körpə yaşlarından tərk etmək məcburiyyətində qaldığı Xocalıya, doğma Qarabağımıza yenidən qayıtmaq arzusu ilə yaşayırdı. Bir xüsusi təyinatlı kimi yeganə amalı elə bu idi Turalın".

Vətən müharibəsi zamanı baş çavuş T.Abdullayevlə eyni qrupun tərkibində hərbi əməliyyatlarda yaxından iştirak etmiş 17074 saylı hərbi hissənin "Qartal" xüsusi təyinatlı dəstəsinin cəsur hərbi qulluqçuları - baş çavuşlar Olxan Quliyev (Laçın istiqamətində gedən döyüşlərdə yaralanıb), Hilal Əliyev (Füzuli istiqamətində gedən döyüşlərdə yaralanıb), Tural Həmzəyev və kiçik çavuş Dəyanət Rüstəmovun (Hadrut istiqamətində gedən döyüşlərdə travma alıb) söylədiklərindən də aydın olur ki, igid silahdaşımız andına sadiq vətənpərvər xüsusi təyinatlı olduğunu elə döyüş meydanında, son nəfəsinədək vuruşaraq düşmənin xeyli sayda canlı qüvvəsini məhv etməklə sübut edib.

**30 sentyabr 2020-ci il...** Kəlbəcər istiqamətində gedən döyüş Turalın son döyüşü oldu. "Qartal" xüsusi təyinatlı dəstəsində texnik, baş çavuş Olxan Quliyev ən yaxın dostu olmuş Turalın ağır yaralanaraq şəhidlik zirvəsinə ucaldığı son döyüşü barədə danışarkən, onun fədakarlığı ilə hər zaman qürur duyacağını bildirdi: "Tural mənim ən yaxın dostum, eyni zamanda, sirdaşım idi. Mənə adımla deyil, soyadıma uyğun olaraq hər zaman "Qulu" deyə müraciət edərdi. Çox qoçaq, gözlərində qorxu hissi olmayan əsl döyüşçü idi. Qismət elə gətirdi ki, Vətən müharibəsi başlayanda da onunla eyni qrupun tərkibində düşmənə qarşı vuruşmalı olduq.

Qrupumuz sentyabrın 27-dən başlayaraq, müvafiq döyüş tapşırığına uyğun Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin xüsusi təyinatlıları ilə birgə hərbi əməliyyatlarda iştirak edib. Tərkibində Turalın da vuruşduğu qrupumuzun şəxsi heyəti Kəlbəcər istiqamətində bir sıra düşmən postlarının ələ keçirilməsində və xeyli sayda canlı qüvvəsinin məhv edilməsində xüsusilə fərqlənib. Lakin əfsuslar olsun ki, onunla az bir zamanda birgə vuruşa bildik. Sentyabrın 30-da Turalın ağır yaralandığı o son döyüş indi də gözlərimin önündən getmir".

Bu arada Olxanı qəhər boğduğundan, söhbətinə bir qədər ara verir. Müsahibim əli ilə gözlərinin yaşını silərək, özünü toparlamağa və ən yaxın dostunu itirdiyi amansız müharibənin acı xatirələrini yenidən bizimlə bölüşməyə davam edir: "Canlı qüvvə və hərbi texnika sarıdan böyük itkilərə məruz qalmış düşmən olduğumuz mövqeləri uzaq məsafədən minaatanlardan və digər artilleriya qurğularından atəşə tutmağa, düçar olduğu məğlubiyyətin əvəzini çıxmağa çalışırdı. Turalla aramızda cəmi iyirmi metr məsafə olardı. Bu zaman düşmənin atdığı minaatan mərmisinin yaxınlığında partlaması nəticəsində baş çavuş T.Abdullayev ağır qəlpə yarası aldı. Mən tez bir zamanda özümü ona yetirib, ilkin tibbi yardım göstərdim, ağrıkəsici iynə vurdum. Bundan əlavə, bu döyüşdə bizimlə birgə vuruşan Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin xüsusi təyinatlı hərbi qulluqçularından da ikisi şəhid olmaqla, dörd nəfəri ağır yaralanmışdı. Sonra biz şəhid və yaralıları maşınlara mindirib, ərazidən çıxartdıq. Çox təəssüflər olsun ki, iki gündən sonra Turalın şəhid olma xəbərini aldım...".

Turalın digər döyüşçü yoldaşı, xüsusi təyinatlı dəstənin başçavuşu baş çavuş Hilal Əliyev isə yaxın dostunun ağır yaralanmazdan bir saat öncə aralarında olan söhbəti məhz müharibənin ən ağrılı xatirəsi kimi heç zaman unutmayacağını bildirdi: "Tural şəhid olacağını sanki bilirdi. Mənə yaxınlaşaraq: "Səndən bir xahişim var" - dedi. Mən cavabımda: "Buyur, qardaş, eşidirəm" - dedim. Gözləri dolmuşdu. Tural bir qədər susduqdan sonra yenidən: "Mən bilirəm ki, şəhid olacağam" - söylədiyi an mən onun sözünü kəsib: "Elə şey ola bilməz. İnşallah, müharibə bizim qələbəmizlə başa çatar, hər birimiz sağ-salamat evimizə qayıdarıq" - deyib, fikrini dağıtmaq istədim. Lakin Tural başını bulayıb, gözlərimin içinə dik baxaraq: "Yox, qardaş. Bu mənim ürəyimə damıb. Əgər mən şəhid olsam, anamı mənim yerimə bol-bol qucaqlayıb, onu çox sevdiyimi söyləyərsən" - demişdi... Bu mənim üçün nə qədər ağır olsa da, şəhidlik məqamına yüksəlmiş döyüşçü yoldaşımın son xahişini yerinə yetirməli oldum".

Baş çavuş T.Abdullayev 2020-ci il oktyabrın 1-də Xəzər rayonu, Binə qəsəbəsində yerləşən Şəhidlər xiyabanında dəfn olunub. Subay idi.

Azərbaycan Respublikası Prezidentinin 9 dekabr 2020-ci il tarixli, 15 dekabr 2020-ci il tarixli və 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə baş çavuş Abdullayev Tural Şakir oğlu (ölümündən sonra) "Qarabağ" ordeni, "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

Sonda məqaləni şairə Şərqiyyə Balacanlının "Şəhidlər" şeirindən bir bəndlə yekunlaşdırıram:

***Siz düşməndən torpaq, qisas aldınız,***
***Şanlı adla xalqa övlad oldunuz.***
***El qəlbində əbədidir adınız,***
***Ölməzliyin özüsünüz, şəhidlər!***

**Allah rəhmət eləsin!**

**mayor Anar Əhmədov**

*Qazilərimiz*

# QALİB DÖYÜŞÇÜ KİMİ AİLƏSİNƏ DÖNDÜ...

Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Vətən müharibəsində iştirak edərək ağır yaralanan və sağlamlığını itirən, bu səbəbdən ehtiyata buraxılan qazi hərbi qulluqçularının da döyüş yolumuzla bağlı tədqiqatlarımızda diqqət mərkəzində saxlayırıq. Onlardan biri ehtiyatda olan gizir Söhbətov Elsevər Cəmşid oğludur. Elsevərin özü və ailəsi ilə görüşdüm, komandiri, döyüşçü yoldaşları, onu müalicə edən həkimə telefonla zəng vuraraq məlumatlar topladım.

O, 8 iyul 1990-cı ildə Abşeron rayonunun Novxanı kəndində anadan olub. Atası Cəmşid Söhbətov və anası Ülkər Söhbətova əslən Qobustan rayonunun Sündü kəndindəndirlər. Həmin kənddən 24 nəfər soydaşımız Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə şəhidlik zirvəsinə ucalıb.

C.Söhbətov Birinci Qarabağ müharibəsində iştirak edib. 1992-1994-cü illərdə Tərtər-Ağdərə bölgəsində könüllü olaraq döyüş yolu keçib.

Söhbətovlar ailəsində bir qız, üç oğlan övladı böyüyərək boya-başa çatıb. Böyük övlad olan Elsevər Bakının Suraxanı rayonunun Hövsan qəsəbəsindəki şəhid Elçin Qaranzadə adına 270 saylı tam orta məktəbdə 4-cü sinfədək, Novxanıdakı Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadə adına 1 saylı tam orta məktəbdə isə 9-cu sinfə qədər oxuyub.

Məktəbli olduğu illərdə Elsevər Novxanıdakı "Samuray" klubunda karate idman növü ilə məşğul olub. "Samuray" klubundan ona verilən sertifikatda 9 kyu (göy zolaqlı) kəmərinə layiq görüldüyü barədə qeydlər öz əksini tapıb. Bundan əlavə, o, 2005-ci ilin may ayında Fərqanə Hüseynovanın xatirəsinə həsr olunmuş "Kyokuşin karate" növü üzrə respublika turnirində III yeri tutub və müvafiq dərəcəli diploma mükafatlandırılıb.

2006-2010-cu illərdə Elsevər Bakı Dövlət Rabitə və Nəqliyyat Kollecində təhsil alıb. Kollecdə lokomotiv və vaqon təsərrüfatı üzrə texnik-mexanik ixtisasına yiyələnib.

2010-cu ilin aprel ayında Elsevər müddətli həqiqi hərbi xidmətə çağırılıb. Daxili Qoşunların 12318 saylı hərbi hissəsində ilkin təlim dövründən sonra hərbi and içib. Sonra 17072 saylı hərbi hissənin komendant bölüyündə xidmət edib, ona "baş əsgər" hərbi rütbəsi verilib. Hərbi xidmət borcunu vicdanla yerinə yetirərək 2011-ci ilin oktyabr ayında tərxis olunub.



Müddətli həqiqi hərbi xidmətdən sonra bir müddət tikintidə fəhlə işləyib, zəhmətkeş gənc olaraq valideynlərinə köməyini əsirgəməyib.

2013-cü ilin iyun ayında Elsevər Daxili Qoşunların 16075 saylı hərbi hissəsinə müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. Vətənpərvər gənc kimi həyatını hərbi xidmətə bağlamağı qərar verib. 16075 saylı hərbi hissədə hərbi xidməti dövründə xüsusi vasitələrin tətbiqi bölməsinin xüsusi vasitələrin tətbiqi qrupunun yarımqrupunda meteomüşahidəçi-atıcı, manevr qrupunda yarımqrup komandiri, xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunda yarımqrup komandiri vəzifələrinə təyin edilib, "gizir" hərbi rütbəsinədək yüksəlib. Tutduğu vəzifələrdə komandanlığın etimadını doğruldub, nümunəvi xidməti nəzərə alınaraq, barəsində müxtəlif növ həvəsləndirmələr tətbiq olunub.

Xidmət etdiyi bölmələrin təyinatından irəli gələn döyüş tapşırıqlarının yerinə yetirilməsinə daim hazır olmaq üçün təlimlərdə əzmkarlıq göstərib, silah və xüsusi vasitələrin texniki xüsusiyyətlərini dərindən mənimsəyib. Tabeliyindəki yarımqrupun döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi yönündə öz bilik və bacarığını əsirgəməyib.

Söhbət zamanı Elsevər məlumat verdi ki, hərbi xidmət dövründə paytaxtımızda keçirilən bir sıra beynəlxalq əhəmiyyətli yarışların təhlükəsizliyinin təmin olunmasında iştirak edib. Bununla yanaşı, ayrı-ayrı fövqəladə hadisələr zamanı qarşıya qoyulmuş xidməti tapşırıqları məsuliyyətlə yerinə yetirib.

O, yüksək fiziki hazırlığı, hərbi qulluqçuların iştirak etdikləri müxtəlif yarışlarda öz məharəti ilə fərqlənib. Armrestlinq üzrə yarışda 1-ci yer tutduğuna görə hərbi hissə komandiri tərəfindən fərmanla mükafatlandırılıb.

Vətən müharibəsindən əvvəl Elsevər xüsusi təyinatlı bölmələrin taktiki hazırlığı üzrə praktiki təlimlərdə iştirak edərək öz döyüş qabiliyyətini artırıb.

2020-ci il 27 sentyabrında başlayan və 44 gün davam edən Vətən müharibəsinə yollanan qoşunların xüsusi təyinatlıları arasında Elsevər də vardı. Onun döyüş yolu 27 sentyabr - 2 oktyabr 2020-ci il tarixlərində Cəbrayıl rayonu ərazisindən keçib. Bu istiqamətdə düşmənin müdafiə xəttinin yarılması, postlarının ələ keçirilməsi, silahsursatını, texnikasını cəmləşdirdiyi atəş nöqtələrinin susdurulması kimi çətin döyüş tapşırıqlarının yerinə yetirilməsində xüsusi təyinatlılar şücaət göstəriblər. Bu döyüşlərdə Elsevər düşmənə qarşı xüsusi təyinatlıya xas cəsurluqla vuruşub, öz silahından açdığı sərrast atəşlə onlarla işğalçını məhv edib. Onun və döyüşçü yoldaşlarının inadlı həmlələrinə düşmən davam gətirə bilməyib.

16075 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin komandiri, Vətən müharibəsi iştirakçısı mayor Ələsgər Muxtarov Elsevəri hərbi xidmətdə olarkən öz funksional vəzifələrinin öhdəsindən gələn, tabeliyindəkilərə nəzakətli, tələbkar olan, nizam-intizamlı və cəsarətli hərbi qulluqçu kimi xarakterizə etdi. Vətən müharibəsində verilmiş döyüş tapşırıqlarını peşəkar xüsusi təyinatlı kimi yerinə yetirdiyini, ən təhlükəli anlarda qətiyyətli davrandığını, komandir olaraq ona arxalandığını nəzərə çatdırdı. Belə döyüşçülərin fədakarlığının gənc nəslə örnək olduğunu da komandir vurğuladı.

25033 saylı hərbi hissədə xüsusi təyinatlı dəstə komandirinin tərbiyə işləri üzrə müavini, Vətən müharibəsi iştirakçısı kapitan Nadir Şərifov qazini 2018-ci ildən tanıdığını söylədi. 16075 saylı hərbi hissədə xidmət edərkən (döyüş bölgəsinə də bu hərbi hissədən gedib) komandiri olduğu xüsusi həmlə qrupunda tabeliyindəki Elsevərin müsbət fərdi keyfiyyətləri ilə seçildiyini dedi. Ön cəbhədə döyüşə öndə gedən, dözümlü və iradəli hərbi qulluqçulardan biri olduğunu danışdı. Məlumat verdi ki, döyüşlər başlayanda ilk olaraq Lələtəpə yüksəkliyi yaxınlığında Füzuliyə gedən yolun nəzarətdə saxlanılması tapşırığını alıblar. Sonrakı günlərdə düşmənin Lələtəpənin önündəki istiqamətdə yerləşən birinci müdafiə xəttinin, eləcə də Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndi ətrafındakı ikinci müdafiə xəttinin yarılması, mövqelərinin darmadağın edilməsi məqsədilə hücuma keçiblər. Hücum zamanı təcavüzkarın müdafiə xətləri yarılaraq əsas mövqeləri nəzarətə götürülüb, ermənilər canlı qüvvə, texnika, silah-sursat sarıdan ciddi itkiyə məruz qalıblar.

Oktyabrın 2-də 150-200 metr yüksəklikdəki düşmən postuna 8 nəfərdən ibarət qrupla həmlə ediblər. Qrupun tərkibində Elsevər də olub. Postu ələ keçirdikdən sonra düşmən oranı texnika və iriçaplı silahlardan şiddətli atəşə tutub. İşğalçıların postu geri almaq cəhdi uğursuzluqla nəticələnib. Həmin döyüşdə Elsevər alın nahiyəsini dələrək sağ qulağının üstündən çıxan snayper gülləsindən ağır yaralanıb. Onun şəhid olduğunu zənn ediblər. Ancaq xırıltılı səsi və nəbzinin döyünməsindən sağ qaldığı məlum olub, döyüş meydanından silahdaşları tərəfindən çıxarılıb.

16075 saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunda atıcı, Vətən müharibəsi iştirakçısı, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Beyrut Rəhmanov bildirdi ki, o da Elsevəri 2018-ci ildən tanıyır. Onun etibarlı və qayğıkeş silahdaş olduğunu vurğuladı. Döyüşlərdə onun qorxmazlığı yoldaşlarını da ruhlandırırdı. Beyrut qazini yaralandığı yerdən təxliyyə etmiş bir neçə hərbi qulluqçudan biridir. Silahdaşının xilası üçün həmin anda bütün mümkün olanı edib.

Elsevərin həyata qaytarılmasında, onun sağlamlığının bərpasında Bakı Neyrocərrahiyyə Xəstəxanasının baş həkimi Fərid Təqdirov, bu xəstəxanada neyrocərrahlar Nicat Muştaqov və Elşən Hüseynzadənin böyük zəhməti var. Peşəkar həkimlərimizin Ağcabədi Rayon Xəstəxanası və Bakı Neyrocərrahiyyə Xəstəxanasında apardıqları çətin cərrahi əməliyyat, uğurlu müalicə qazimizi ölümün pəncəsindən qoparıb, ailəsinə qovuşdurub.

Azərbaycan Respublikası Prezidentinin 18 dekabr 2020-ci il tarixli, 24 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə gizir E.Söhbətov "Cəsur döyüşçü" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib.

II qrup əlil olan Elsevərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü verilir, habelə pensiya təyin olunub.

2015-ci ilin noyabr ayında Elsevər Rübabə xanımla ailə qurub. Nilay, Nuray və Nihad adlı üç azyaşlı övladı var. Nihad Vətən müharibəsindən sonra dünyaya gəlib. Doğmalarının sevgisi və qayğısı ona ağır yaralanmanın fəsadlarını aradan qaldırmağa mənəvi güc verir.

Atası onunla qürur duyduğunu söylədi. "Bizim edə bilmədiyimizi igid övladlarımız etdilər, bu gün qalib xalq olaraq yaşayırıq"- deyə vurğuladı.

**Yalçın Abbasov**

4-3_Layout 1 12.08.2021 11:14 Page 1



# KOMENDANT BÖLÜYÜ ƏSGƏRİ BÖLÜKLƏR ARASINDA BİRİNCİDİR

Hərbi hissənin döyüş xidməti dedikdə, ilk növbədə, döyüş bayrağının, anbarların, hərbi hissənin mühafizə və müdafiəsi ağlımıza gəlir. Bu baxımdan 99713 saylı hərbi hissənin komendant bölüyü hissənin etibarlı şəkildə qorunmasını həyata keçirir. Hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunan bölüyün şəxsi heyəti daim ayıq-sayıqlığı və əzmkarlığı ilə fərqlənir.



Bölük komandirinin vəzifələrini müvəqqəti icra edən baş leytenant Ülfət Məmmədov söhbət zamanı üzərilərinə düşən mühüm vəzifələrin əhəmiyyətini diqqətə çatdırdı. Komendant bölüyündə xidmətin çətin, lakin şərəfli olduğunu və döyüş xidmətinə seçilən hərbi qulluqçuların hər birinin olduqca diqqətli və əzmkar olmasını xüsusilə vurğuladı. Məlumdur ki, məsuliyyətli, eyni zamanda, mühüm vəzifəni yerinə yetirmək üçün bölükdə xidmət edən hər bir hərbi qulluqçunun fiziki baxımdan sağlam, mənəvi-psixoloji durumunun qənaətbəxş və atəş hazırlığının yüksək səviyyədə olması vacib amillərdir. Bu gün xidmətə cəlb olunan şəxsi heyətdə sadalanan keyfiyyətlərin olduğunu deyən bölük komandiri hərbi qulluqçularla keçirilən məşğələlərin əhəmiyyətini önə çəkdi. Keçirilən nəzəri məşğələlərin şəxsi heyətin bilik və bacarığının artırılmasına, hərbi savadının genişlənməsinə təkan verdiyini dedi. Onun fikrincə, yüksək fiziki göstərici, geniş hərbi savada malik, eləcə də mənəvi cəhətdən sağlam olan hərbi qulluqçu əzmkar döyüşçüdür. Mütəmadi olaraq şəxsi heyətlə aparılan işin nəticəsidir ki, hərbi hissənin əsgəri bölükləri içində cari ilin birinci yarımilinin xidməti-döyüş fəaliyyətinin və hərbi intizamın yekunlarına görə komendant bölüyü birinci yerə layiq görülüb.



Döyüş hazırlığının yüksəldilməsində taqım komandiri baş leytenant Nicat Zeynallının əməyini xüsusilə vurğulayan bölük komandiri onun intizamlı zabit kimi peşəkarlıq səviyyəsini yüksək qiymətləndirdi. Bildirdi ki, üzərinə düşən vəzifələrin icrası zamanı sayıqlıq, peşəkarlıq nümayiş etdirir. Ümumiyyətlə, zabit şərəfini hər şeydən üstün tutan komandir hər bir zabitin özlüyündə tabeliyində olan hərbi qulluqçulara örnək ola bilməsinin vacibliyini, tələbkarlıq və qayğının paralel olaraq aparılmasının da önəmli olduğunu son olaraq sözlərinə əlavə etdi: “Deyə bilərəm ki, bu gün bizə həvalə olunan tapşırıqların öhdəsindən layiqincə gəlmək üçün əlimizdən gələni edir və obyektlərin mühafizə və müdafiəsi əzmkar hərbi qulluqçular tərəfindən etibarlı şəkildə təmin olunur”.

**baş leytenant**
**Nigar Ağayeva**

# YÜKSƏK DÖYÜŞ HAZIRLIĞINA MALİK MİNAATAN BATAREYA VƏZİFƏLƏRİNİ MÜVƏFFƏQİYYƏTLƏ YERİNƏ YETİRİR

Daxili Qoşunlara həvalə olunmuş vəzifələrdən biri də zərurət olduqda Azərbaycan Respublikası ərazisinin müdafiəsində iştirak etməkdir. Bu baxımdan, 16073 saylı hərbi hissənin minaatan batareyası xidməti-döyüş fəaliyyətini uğurla həyata keçirir. Batareyanın şəxsi heyəti yüksək döyüş hazırlığı və hərbi intizamı ilə seçilir. Peşə vərdişlərinin təkmilləşdirilməsi məqsədilə, təsdiq edilmiş müvafiq cədvəllərə əsasən, şəxsi heyət məşğələlərə cəlb olunur. Keçirilən məşğələlərin nəticəsidir ki, batareya qarşıya qoyulan vacib, eyni zamanda, məsuliyyətli tapşırıqların öhdəsindən layiqincə gəlir, onları keyfiyyətlə icra edir. Bu işdə batareyanın təcrübəli komandiri kapitan Yaqub Abbasovun zəhməti böyükdür. O, 2008-ci ildən Daxili Qoşunların sıralarındadır. Bundan əvvəl 16077 saylı hərbi hissənin minaatan batareyasının komandiri olub. 2021-ci ilin may ayından hazırkı vəzifəni icra edir.





Kapitan Y.Abbasovla söhbət zamanı bildirdi ki, döyüş əməliyyatları zamanı düşmən üzərinə asanlıqla irəliləmələri üçün motoatıcı bölmələri atəş dəstəyi ilə təmin etmək, düşmənin idarəetmə məntəqələri, atəş nöqtələri və yüngül zirehli texnikalarını, eləcə də düzünə artilleriya ilə vurulması mümkün olmayan üstüörtülü sığınacaqlarda yerləşən canlı qüvvəsini məhv etmək batareyanın üzərinə düşən əsas tapşırıqlardandır. Eyni zamanda, düşmənin önünü, gerisini və dərinliklərini iriçaplı silahlarla atəşə tutan batareya hücuma keçən bölmələrin sərbəst irəliləmələrinə əlverişli şərait yaradır.

Tapşırıqların yerinə yetirilməsi baxımından şəxsi heyətin peşəkarlıq səviyyəsinin yüksək olması vacibdir. Hərbi qulluqçularla ixtisas hazırlığı məşğələsində atış və atışın idarə olunması, batareya hücumda, batareya müdafiədə mövzularında təlimlər keçirilir, həmçinin, minaatanın təyinatı, taktiki-texniki xüsusiyyətləri, iş prinsipləri və təhlükəsizlik qaydaları öyrədilir.

Batareya komandiri onu da vurğuladı ki, şəxsi heyət təlim və məşğələlərə məsuliyyətlə yanaşır, eləcə də intizam qaydalarına ciddi riayət edir.

O, funksional vəzifələrinin öhdəsindən layiqincə gələn müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularından çavuş Elcan Nəsirov, əsgərlər Hikmət Binyətov, Turan Abidi və Əli Mehdiyevin adlarını çəkdi.

**kapitan Xədicə Hacızadə**

*HƏKİM MƏSLƏHƏTİ*

# YAY MÖVSÜMÜNÜN ƏSAS QİDALARI YÜNGÜL YEMƏKLƏR VƏ KARBOHİDRATLA ZƏNGİN TƏRƏVƏZLƏR OLMALIDIR

Fəsillər dəyişdikcə qida rasionumuzdakı yeməklər də bir-birini əvəz edir. Qışda daha çox isti xəmir xörəkləri, yaz-payız aylarında zəngin vitaminli meyvələrə üstünlük verilir. Yay mövsümündə isə əsasən meyvə-tərəvəzlər, yağsız yüngül yeməklər rahatlıq üçün ən çox üz tutulan qidalardır.

İsti havalarda sağlamlıq üçün qəbul edilən qidalara xüsusilə diqqət yetirmək lazımdır. Yay mövsümündə orqanizm üçün faydalı və ya zərərli hesab edilən qidalar barədə Azərbaycan Tibb Universitetinin həkim-dietoloqu Leyla Zülfüqarlı AZƏRTAC-a məlumat verib: “Yay mövsümündə bəsit karbohidrat qrupu menyuda az yer almalıdır. Məsələn, kartof, şəkər, ağ undan bişirilən xəmir xörəkləri minimuma endirilməlidir.



Onların yerini daha mürəkkəb karbohidratlar, yəni yaşıllığı bol olan göyərtilər, mövsümi tərəvəzlər, kələm və s. tutmalıdır”.

Maye qəbulu, xüsusilə də sərin içkilərdən isti havalarda daha çox istifadə edilir. Ancaq burada da diqqət yetirilməsi lazım olan məqamlar var. Həkim-dietoloq deyib: “Bəzən insanlar səhv olaraq həmin mövsümdə energetik, qazlı və şəkərli içkilərə meyl edirlər. Əslində isə yayda onların qəbulu məhdudlaşdırılmalıdır. Qızmar yay günlərində istifadəsi tövsiyə olunan digər qida qrupu isə süd məhsullarıdır. Bu fəsildə qatığa üstünlük vermək, gün ərzində hətta 1 litrə qədər qəbul etmək olar. Pandemiya dövrü olduğuna görə immun sisteminə nəzarət etmək lazımdır. Bunun üçün kətan, qaraçörək otu, zərdəçal, sarıkök, darçın və sair bitki toxumlarının qatığa qatılaraq qəbul edilməsi yüksək fayda verir”.

*NÜMUNƏVİ XİDMƏT*

# ZABİTİMİZ GÖSTƏRİLƏN ETİMADI DOĞRULTMAQ ÜÇÜN ÖZ BİLİK VƏ BACARIĞINI ƏSİRGƏMİR

25032 saylı hərbi hissənin icraçılığı, xidmətə münasibətilə fərqlənən bölmələrindən biri qərargahda şəxsi heyətin uçotu üzrə bölmədir. Bölmənin hər bir hərbi qulluqçusu öz işinə məsuliyyət hissilə yanaşır. Onlardan qərargah rəisinin şəxsi heyətin uçotu üzrə köməkçisi kapitan Elzamin Sadiqov xidməti fəaliyyətində müsbət cəhətdən fərqlənir. Qərargah rəisinin şəxsi heyətin uçotu üzrə baş köməkçisi mayor Namiq Ağayev bildirdi ki, kapitan E.Sadiqov tapşırılan bütün işlərin vaxtında və keyfiyyətlə həyata keçirilməsi, şəxsi heyətin uçotunun müvafiq təlimatın tələblərinə uyğun təşkil edilməsi və aparılması üçün əlindən gələni əsirgəmir.



Kapitan E.Sadiqov 2011-ci ildə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi Daxili Qoşunların 16075 saylı hərbi hissəsində xidmətə başlayıb. Burada xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunda heyət nəfəri vəzifəsində xidmət edib. 2012-2014-cü illərdə isə Daxili Qoşunların Orta İxtisas Hərbi Məktəbində (hazırda Daxili Qoşunların Ali Hərbi Məktəbi) təhsil alıb. Leytenant hərbi rütbəsini aldıqdan sonra 12318 saylı hərbi hissənin patrul bölüyündə taqım komandiri vəzifəsinə təyin olunub. 2016-cı ilin noyabr ayınadək taqım komandiri vəzifəsində xidmət edən kapitan E.Sadiqov həmin tarixdə qərargah rəisinin şəxsi heyətin uçotu üzrə köməkçisi vəzifəsinə irəli çəkilib. 2017-ci ilin mart ayında isə 25032 saylı hərbi hissədə eyni vəzifəyə keçirilib.

Zabit qərargah rəisinin şəxsi heyətin uçotu üzrə köməkçisi vəzifəsində böyük rəislərin xidmət təcrübəsindən bəhrələnir. Şəxsi keyfiyyətləri ilə fərqlənən hərbi qulluqçumuz dəfələrlə daxili işlər naziri, daxili qoşunların və hərbi hissə komandanlığı tərəfindən mükafatlandırılıb. Ona keçən il həvəsləndirmə qaydasında vaxtından əvvəl “kapitan” hərbi rütbəsi verilib.

O, görülən işlər barədə məlumat verdi ki, bölmənin fəaliyyəti daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının müvafiq əmri ilə təsdiqlənmiş “Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında şəxsi heyətin uçotunun aparılması qaydalarına dair müvəqqəti Təlimat”ın tələblərinə uyğun olaraq təşkil edilir. Belə ki, hərbi hissədə şəxsi heyətin uçotu, gündəlik döyüş məsrəfi, şəxsi heyət üzrə müəyyən edilmiş məlumatlar vaxtlı-vaxtında hazırlanaraq hərbi hissə komandirinin 1-ci müavini-qərargah rəisinə məruzə olunur.

Hərbi qulluqçumuz nizami hissə üzrə əmrin layihəsini vaxtında hazırlayır, şəxsi heyətin uçotu barədə müəyyən olunmuş məlumatları aidiyyəti üzrə rəisinə məruzə edir. Müxtəlif kateqoriyalı hərbi qulluqçuların qeydiyyat dəyişiklikləri müntəzəm olaraq uçot kitablarında qeyd olunur. Həmçinin, hərbi qulluqçuların xidməti vəsiqələrinin uçotunu aparır, qeydiyyat sənədlərinə, hərbi biletlərə vaxtlı-vaxtında dəyişikliklər edir.

Zabitimiz bilik və bacarıqlarının artırılması istiqamətində əzmlə çalışır.

**kapitan Sadıq Rəfiyev**

# HƏRBİ XƏBƏRLƏR

-YENİLİKLƏR-

## Almaniyanın aviadesantlanan yeni GSD LuWa tanketkası

Almaniya desantları gələcəkdə yeni tırtıllı tanketka ilə silahlana bilər. Almaniyanın IABG şirkəti tərəfindən GSD LuWa adlı yeni yüngül tırtıllı zirehli maşını təqdim edilib. “Poliqon” xəbər verir ki, bu barədə “Army Recognition” portalı məlumat verib.

Yeni zirehli maşınlar Almaniya Müdafiə Nazirliyinin sifarişi ilə Hava-Desant Qüvvələrindəki köhnəlmiş “Wiesel-1” aviadesantlanan tanketkasını əvəz etmək üçün hazırlanıb.



GSD LuWa zirehli maşınında şassisi olaraq ikitırtıllı müstəqil asqıdan istifadə olunur. Nümayiş modelinin üzərinə 25 mm və ya 30 mm-lik avtomatik topla silahlanmış, insansız “Valhalla” döyüş modulu yerləşdirilib. Heyət bir-birinin arxasınca oturan iki nəfərdən ibarətdir.

Təkmilləşdirilmiş zirehli maşınların kəşfiyyat maşını qismində ən azından 2030-cu ilə qədər silahlanmada qalacağı bildirilir.

## Cənubi Koreya 3.1 milyard dollarlıq yeni freqatlar alacaq

Cənubi Koreyanın Müdafiə Satınalmaları Proqramı İdarəsi (DAPA) yeni freqatların inşası üçün 3,1 milyard dollarlıq layihəyə yaşıl işıq yandırıb. Ordu.az xəbər verir ki, bu barədə DAPA-nın mətbuat xidməti məlumat yayıb.

Layihə çərçivəsində “Ulsan” adlı gəmilərin inşası nəzərdə tutulub. 2023-2032-ci illərdə davam edəcək proqramın ümumi



büdcəsi texniki-iqtisadi əsaslandırmadan sonra nəzərdən keçirilməli və təsdiq edilməlidir.

“Hyundai Heavy Industries” şirkəti 2016-cı ildən başlayaraq “Ulsan” sinfində subasımı 3500 ton olan yeni freqatlar hazırlayır.

## H145M helikopterləri “Spike” raketi ilə silahlandırılacaq

Dünyaca məşhur “Airbus Helicopters” aviaqurasdırma şirkəti İsrailin “Rafael” şirkətinin istehsalı olan “Spike” ER2 tank əleyhinə idarə olunan raketini özünün çoxməqsədli H145M döyüş meydanını dəstək helikopterinə inteqrasiya etmək niyyətindədir. “Poliqon” xəbər verir ki, bu barədə “Europaische Sicherheit & Technik” nəşri məlumat yayıb.




Yayılan məlumatlara görə, silahın yeni, daha yüngül dördyerli buraxma qurğusu ilə ilk uçuş sınaqları artıq baş tutub. “Airbus” şirkətinin nümayəndəsinin təsdiqlədiyi kimi, aerodinamik sınaqlar, başqa xüsusiyyətlərlə yanaşı, quraşdırılmış sistemin hava müqaviməti təyin edilib və titrəmə xüsusiyyətləri yoxlanılıb. Qüllənin tam rəqəmsal idarə edilməsi “Spike” ER2 raketini H145M arxitektura-sına inteqrasiya etməyə imkan verib.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN
Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4,
Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. “Əsgər” qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000